# Gəncədə Beynəlxalq Kitab Bağışlama Günü qeyd olunub

**Şəhər icra hakimiyyətinin dəstəyi və Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin təşkilatçılığı ilə Gəncədə Beynəlxalq Kitab Bağışlama Günü münasibəti ilə tədbir keçirilmişdir.**



Tədbirdə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki vitse-konsulu Yiğit Yalın Soyal, Gürcüstanın Gəncədəki Baş konsulu Qaxaber Abdaladze, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin müdiri Elçin Kərimov, GDU-nun rektoru, professor Yusif Yusibov, ADAU-nun rektoru Zəfər Qurbanov, Gəncə Tibb Kollecinin direktoru, Əməkdar həkim Mehman Rzayev, Gəncə Dövlət Aqrar Kollecinin direktoru Fəqan Ağayev, eləcə də şəhərdə fəaliyyət göstərən təhsil ocaqlarınn müəllim və şagirdləri iştirak etmişlər.

Tədbir iştirakçıları öncə Gəncə şəhər Uşaq Gənclər İnkişaf Mərkəzi və 13 saylı körpələr evi-uşaq bağçası tərəfindən hazırlanan sərgiyə baxmışlar. Sonra ŞİH-in başçısı Niyazi Bayramov çıxış edərək kitab oxumağın hər yaşda lazım və vacib olduğunu bildirmiş və diqqətə çatdırmışdır ki, mütaliə ilə məşğul olmaq insanın söz ehtiyatını çoxaldır, zehnini möhkəmləndirir, ünsiyyət bacarığını artırır. Elçin Kərimov və Bayram Aslanov da çıxışlarında gələcəyimizin qurucuları olan uşaqların dünyagörüşünün inkişafında kitab oxumağın nə qədər vacib olduğunu qeyd etmiş, uşaqları kitab oxumağa, tariximizi, mədəniyyətimizi, ədəbiyyatımızı öyrənməyə çağırmışlar.

Məktəblilərin ifasında ədəbi-bədii kompozisiya təqdim edildikdən sonra nailiyyətləri ilə seçilən şagirdlərə kitablar hədiyyə olunmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 16 fevral (№35).- S.8.